PAŞA Həyat

| | |
|---|---|
| **Sığorta təminatının qüvvədə olduğu ərazi** | Bütün Dünya |
| **Sığorta təminat(lar)ı** | Bu sığorta şəhadətnaməsi ilə, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 23 sentyabr 2014-cü il tarixli Q-21 nömrəli qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslərə təqdim edilən kredit müqavilələri üzrə borcalanın həyatının ölüm halından və əmək qabiliyyətinin itirilməsi hallarından sığortası qaydaları"nın (bundan sonra "Qaydalar") 5-ci bəndində qeyd edilən məhdudiyyətlər nəzərə alınmaqla aşağıdakılara təminat verilir:<br>- Sığorta olunanın istənilən səbəbdən ölümü<br>- Bədbəxt hadisə və ya xəstəlik nəticəsində sığorta olunanın orqanizminin funksiyasının I dərəcə məhdudlaşması halının müəyyən edilməsi (Bədbəxt hadisə və ya xəstəlik nəticəsində sığorta olunanın orqanizminin funksiyalarının 31-60 faiz pozulmasına görə ona əlilliyin müəyyən edilməsi)<br>- Bədbəxt hadisə və ya xəstəlik nəticəsində sığorta olunanın orqanizminin funksiyasının II dərəcə məhdudlaşması halının müəyyən edilməsi(Bədbəxt hadisə və ya xəstəlik nəticəsində sığorta olunanın orqanizminin funksiyalarının 61-80 faiz pozulmasına görə ona əlilliyin müəyyən edilməsi)<br>- Bədbəxt hadisə və ya xəstəlik nəticəsində sığorta olunanın orqanizminin funksiyasının III dərəcə məhdudlaşması halının müəyyən edilməsi(Bədbəxt hadisə və ya xəstəlik nəticəsində sığorta olunanın orqanizminin funksiyalarının 81-100 faiz pozulmasına görə ona əlilliyin müəyyən edilməsi) |
| **Sığorta müddəti** | Kredit müddətinə əsasən formalaşır |

**Sığorta ödənişinin həcmi və verilmə qaydası**

Bu sığorta şəhadətnaməsi üzrə "Qaydalar"ın 13.6.2.-ci yarımbəndinə uyğun olaraq kredit müqaviləsi üzrə borcun ödəniş qrafikində nəzərdə tutulmuş qaydada azalmasına uyğun olaraq ***azalan sığorta məbləği*** tətbiq edilir. Yəni sığorta hadisəsinin baş verdiyi tarixə sığorta məbləğinin həcmi kredit ödənişi qrafikində sığorta hadisəsi baş verdiyi ay üzrə qalıq borc məbləği həcmində müəyyən edilir.

Qalıq borc məbləğini keçməmək şərtilə, sığorta ödənişinin həcmi ***"Təminatlar"*** və "***Sığorta ödənişi verilərkən nəzərə alınan və sığorta ödənişinin həcminə təsir edən digər məqamlar"***a əsasən müəyyənləşdirilir.

***Təminatlar üzrə:***

**1.Sığorta olunanın istənilən səbəbdən ölümü halında** – sığorta ödənişinin həcmi qalıq borc məbləğinin 100%-i həcmində;

**2. Bədbəxt hadisə və ya xəstəlik nəticəsində sığorta olunanın orqanizminin funksiyasının I dərəcə məhdudlaşması halının müəyyən edilməsi üzrə:**
2.1. I dərəcə müddətli məhdudlaşma təyin edildiyi halda, sığorta ödənişinin həcmi məhdudlaşma müəyyən edilmiş dövr ərzində ödəniş cədvəlinə uyğun olaraq hər dövr üzrə ödənilməli borc məbləğinin 30%-i həcmində müəyyən edilir.
2.2. I dərəcə müddətsiz məhdudlaşma təyin edildiyi halda, sığorta ödənişinin həcmi qalıq borc məbləğinin 30%-i həcmində müəyyən edilir.
2.3. Orqanizmin funksiyasının I dərəcə məhdudlaşması üzrə yalnız bir dəfə yuxarıda nəzərdə tutulmuş həcmdə sığorta ödənişi verilir.
2.4. Sığorta olunanda əvvəldən I dərəcə məhdudlaşma mövcuddursa, ona bu sığorta təminatı üzrə hər hansı ödəniş həyata keçirilmir.

**3. Bədbəxt hadisə və ya xəstəlik nəticəsində sığorta olunanın orqanizminin funksiyasının II dərəcə məhdudlaşması halının müəyyən edilməsi üzrə:**
3.1. II dərəcə müddətli məhdudlaşma təyin edildiyi halda, sığorta ödənişinin həcmi məhdudlaşma müəyyən edilmiş dövr ərzində ödəniş cədvəlinə uyğun olaraq hər dövr üzrə ödənilməli borc məbləğinin 100%-i həcmində müəyyən edilir.
3.2. II dərəcə müddətsiz məhdudlaşma təyin edildiyi halda, sığorta ödənişinin həcmi qalıq borc məbləğinin 100%-i həcmində müəyyən edilir.
**4. Bədbəxt hadisə və ya xəstəlik nəticəsində sığorta olunanın orqanizminin funksiyasının III dərəcə məhdudlaşması halının müəyyən edilməsi üzrə:**
4.1. III dərəcə müddətli məhdudlaşma təyin edildiyi halda, sığorta ödənişinin həcmi məhdudlaşma müəyyən edilmiş dövr ərzində ödəniş cədvəlinə uyğun olaraq hər dövr üzrə ödənilməli borc məbləğinin 100%-i həcmində müəyyən edilir.

4.2. III dərəcə müddətsiz məhdudlaşma təyin edildiyi halda, sığorta ödənişinin həcmi qalıq borc məbləğinin 100%-i həcmində müəyyən edilir.

***Sığorta ödənişi verilərkən nəzərə alınan və sığorta ödənişinin həcminə təsir edən digər məqamlar:***

1. Sığorta olunana orqanizminin funksiyasının müddətli məhdudlaşması təyin edildiyi təqdirdə, Sığortaçı tərəfindən sığorta ödənişi ödəniş cədvəlinə uyğun olaraq hissəvi kredit ödənişləri başladığı təqdirdə, həmin hissəvi kredit ödənişlərinə uyğun olaraq hissəvi şəkildə verilir. Əgər sığorta olunana müddətli məhdudlaşma təyin edilən zaman ödəniş cədvəlinə əsasən hissəvi kredit ödənişi başlamamışdırsa, Sığortaçı həmin tarixə qədər heç bir ödəniş həyata keçirmir. Əgər ödəniş cədvəlinə uyğun olaraq hissəvi kredit ödənişləri başlayana qədər sığorta olunana təyin olunan orqanizmin funksiyasının müddətli məhdudlaşması istənilən səbəbdən qüvvədən düşərsə, Sığortaçı heç bir ödəniş həyata keçirmir.
2.Sığortaçı Sığortalının kredit borcu üzrə ödəniş qrafikinə uyğun olaraq son ödəniş etməli olduğu tarixdən hadisə baş verən günədək hesablanan kredit faizlərinin ödənilməsini öhdəsinə götürür.
3.Ödəniş qrafiki üzrə müəyyən edilmiş qalıq borc məbləği sığorta məbləğindən artıq olarsa, sığorta ödənişi sığorta məbləği həcmində həyata keçirilir. Heç bir halda faizlər daxil olmaqla sığorta ödənişinin həcmi sığorta məbləğinin həcmindən çox ola bilməz. Sığortaçı kreditin gecikdirilməsi ilə əlaqədar cərimə və s. məbləğlərə görə heç bir məsuliyyət daşımır.
3.1. Sığorta hadisəsi ilə bağlı Sığortaçıya təqdim edilməli olan son sənədlər təqdim edildikdən sonra Sığortaçı sığorta ödənişinin həyata keçirilməsinə "Qaydalar"da nəzərdə tutulmuş vaxtdan əlavə vaxt sərf etdikdə, həmin müddətə də hesablanmış faizlər ödənilir.
4.Sığorta ödənişi şəhadətnamə (və ya onun əlavəsi) buraxıldığı gün qüvvədə olan şərtlər əsasında gələcək dövrlər üzrə nəzərdə tutulmuş ödəniş qrafikinə (əsas və faiz borcu göstərən cədvəl) əsasən həyata keçirilir.
5.Sığorta müqaviləsi qüvvədə olduğu müddətdə Kredit müqaviləsinin şərtləri reskturizasiya edilərsə (əsas borc məbləği, illik faiz dərəcəsi, kredit müddəti, əsas borc və faiz ödənişi şərtləri, müqavilə üzrə ödəniş qrafiki və s. dəyişdirilərsə), həyata keçirilmiş dəyişikliklərə uyğun olaraq bu Şəhadətnaməyə əlavə və dəyişiklik edilməmişdirsə, bu zaman Sığortaçı sığorta ödənişini kredit müqaviləsinin şəhadətnamə (və ya onun əlavəsi) buraxılan tarixdə qüvvədə olan şərtlər əsasında gələcək dövrlər üzrə nəzərdə tutulmuş ödəniş qrafikinə əsasən həyata keçirir. Əgər restrukturizasiyadan sonra kredit müqaviləsi üzrə faktiki borc məbləği restrukturizasiyadan əvvəlki ödəniş qrafikinə əsasən ödənilməli olan borc məbləğindən az olarsa, Sığortaçı faktiki borc məbləğini əsas götürərək bu şəhadətnaməyə uyğun qaydada sığorta ödənişini hesablayacaqdır.
6.Kredit müqaviləsi üzrə tələbin güzəşti həyata keçirildikdə yeni borcverən bu sığorta müqaviləsi üzrə faydalanan şəxs qismində çıxış edir.
7.Şəhadətnamə üzrə sığorta haqqı və sığorta məbləği xarici valyutada göstərildikdə, sığorta ödənişi Azərbaycan Respublikasının Mərkəzi Bankının ödəniş tarixinə rəsmi məzənnəsi əsasında manat ekvivalenti ilə həyata keçirilir.

## Sığorta haqqının ödənilməsi ilə əlaqədar şərtlər

1.Bu sığorta şəhadətnaməsi (müqaviləsi) üzrə sığorta haqqı sığortalı tərəfindən birdəfəlik şəkildə ödənilir.
2.Sığorta haqqı sığorta şəhadətnaməsi buraxıldığı tarixdən 1 ay ərzində ödənilməlidir.
3.Sığorta haqları və ya onun müqavilə ilə razılaşdırılmış hissəsi nəzərdə tutulmuş ödənilmə qaydasına uyğun olaraq vaxtında ödənilməzsə, Sığortaçı Sığortalını bu sığorta şəhadətnaməsində qeyd edilən ünvanına, e-poçt ünvanına, mobil telefon nömrəsinə bildiriş (məktub, mesaj, elektron məktub və s. şəklində) göndərilməsi vasitəsilə onu xəbərdar etməklə sığorta şəhadətnaməsinə (müqaviləsinə) vaxtından əvvəl birtərəfli qaydada xitam verə bilər. Xəbərdarlıqda qeyd edilən tarixdən sığorta şəhadətnaməsi (müqaviləsi) qüvvədən düşmüş hesab edilir.

## Digər şərtlər

1.Bu şəhadətnamə "Qaydalar"a əsasən bağlanmışdır. Sığortalı bu Şəhadətnaməni təsdiqləməklə, "Qaydalar"la tanış olmasını bildirir. "Qaydalar" "PAŞA Həyat Sığorta" ASC-nin rəsmi saytında (www.pasha-life.az) yerləşdirilmişdir. Sığorta şəhadətnaməsi və "Qaydalar" birlikdə sığorta müqaviləsini əmələ gətirir.
2.Şəhadətnamədən irəli gələn məsələlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.
3.Sığorta şəhadətnaməsi sığorta təminatının müddətinin başlaması ilə qüvvəyə minir və sığorta təminatının qüvvədə olduğu müddət ərzində hüquqi qüvvəyə malikdir. Sığorta təminatının müddəti başa çatdıqda sığorta şəhadətnaməsi qüvvədən düşmüş hesab edilir. Sığortaçı tərəfindən sığorta ödənişi yalnız sığorta təminatının qüvvədə olduğu müddət ərzində baş vermiş sığorta hadisəsinə görə həyata keçirilir.
4.Sığortalı bu şəhadətnaməni təsdiqləməklə razılaşır ki, özünün dolduraraq təsdiqlədiyi ərizə forması bu şəhadətnamənin ayrılmaz tərkib hissəsini təşkil edir. Sığortalı ərizə formasında qeyd etdiyi məlumatlarda sığorta təminatının başlanma tarixinə qədər hər hansı dəyişiklik olarsa, bu barədə sığortaçını məlumatlandırmalıdır. Dəyişiklik barədə sığortaçının məlumatlandırılmaması, həmin dəyişiklik nəticəsində baş vermiş hadisəyə görə sığorta ödənişinin verilməsindən imtina edilməsi üçün əsasdır.
5.Sığorta şəhadətnaməsinin (müqaviləsinin) buraxılma tarixi sığorta müddətinin başlanma tarixindən fərqlənərsə və sığorta hadisəsi hesab edilə bilən hal və ya hadisə sığorta müddətinin başlanma tarixinə qədər baş verərsə:
a.Sığortaçı tərəfindən heç bir sığorta ödənişi verilmir;

b.Sığorta haqqı əvvəlcədən ödənildiyi halda, həmin vəsait Sığortalıya və ya onun Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq təyin edilmiş vərəsələrinə qaytarılır.

6.Şəhadətnamə və onun əlavələri, habelə ərizə forması aşağıdakı üsullardan biri ilə təsdiq edildikdə onun şərtləri hüquqi qüvvəyə malikdir:

a.Sığortaçı (və ya müvafiq səlahiyyət verilmişdirsə, Sığorta agenti) tərəfindən:

1.Əl imzası və möhür ilə;
2.Əl imzası və möhürün skan və ya digər vasitə ilə surətinin çıxarılması yolu ilə;
3.Elektron imza ilə;
4. Sığorta haqqının köçürülməsi yolu ilə.

b.Sığortalı tərəfindən:

1.Əl imzası ilə;
2. Əl imzasının skan və ya digər vasitə ilə surətinin çıxarılması yolu ilə və ya imzanın digər analoqu ilə;
3. Elektron imza ilə və ya sığorta haqqının köçürülməsi yolu ilə.

7. Elektron sənəd formasında olan sığorta müqaviləsi üzrə sığortalı tərəfindən sığorta haqqının ödənilməsi imzanın digər analoqu hesab edilir və sığortalının “Qaydalar” və bu sığorta müqaviləsinin şərtləri ilə tanış olmasını, həmin qaydalar və şərtlərlə razılığını, həmçinin sığorta müqaviləsinin bağlanması faktını təsdiqləyir.